BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2008

# AVROPA MƏRKƏZÇİLİYİ: CƏNUBİ QAFQAZ VƏ AZƏRBAYCAN

**N.C.NAĞIYEVA**
*Bakı Dövlət Universiteti*

Yetmiş ildən artıq mövcud olan sovet imperiyası, nəhayət, üçüncü minilliyin astanasında çökdü və özündən sonra bir sıra ağır miraslar qoyub tarixə qovuşdu. Lakin bu imperiyanın dağılmasına baxmayaraq, postsovet məkanının bəzi ölkələrində, o cümlədən Gürcüstanda, Azərbaycanda və Moldovoda hələ bu günə qədər öz həllini tapmayan milli münaqişə zəminində problemlər qalmaqdadır. Əslində, bu milli münaqişələr məhz həmin ərazilərdə xüsusi geosiyasi, geoiqtisadi və geostrateji maraqları olan Rusiyanın özü tərəfindən yaradılmış və həmin münaqişələrin bu günə qədər həll olunmamasının başlıcı səbəbi də elə bu dövlətin özüdür. Bu regionda xüsusi maraqları olan digər aktorların diplomatik səyləri sayəsində, Rusiyanın maraqlarının ziddinə də olsa, əldə edilmiş sabitlik şərti səciyyə daşıyır və bu sabitlik nisbi balansa söykəndiyi üçün, onun daimiləşdirilməsi prosesi hələ uzun müddət davam edəcəkdir.

Sovet imperiyası çökəndən sonra Azərbaycan, nəhayət ki, uzun əsrlərdən bəri uğrunda mübarizə apardığı müstəqilliyə qovuşdu. Doğrudur, bu siyasi quruluşun tərkibinə daxil olan bütün başqa respublikalar da müstəqillik yoluna qədəm qoydular, amma bu prosesdən Azərbaycan daha böyük itkilər hesabına çıxdı. Keçən əsrin əvvəlindən başlayan və sonlarına qədər zaman-zaman təkrarlanan deportasiya nəticəsində yüz minlərlə soydaşımız öz tarixi vətənindən – Qərbi Azərbaycan torpaqlarından didərgin salındı, «şanlı» sovet ordusu 1990-cı il yanvar ayının 20-də tarixdə görünməmiş vəhşiliklə azadlıq uğrunda mübarizəyə qalxan və milli dirçəliş yoluna qədəm qoymuş yüzlərlə günahsız vətəndaşlarımızı qətlə yetirdi, erməni daşnakları əvvəlcə sovet, sonra isə onun birbaşa varisi olan rus ordusunun rəhbərliyi və bilavasitə iştirakı ilə Dağlıq və Aran Qarabağda azərbaycanlılara qarşı əsl soyqırım və etnik təmizləmə siyasəti aparmağa başladı, torpaqlarımızın 20 faizi rus-erməni hərbi birləşmələri tərəfindən zəbt edildi, bir milyondan artıq Azəraycan vətəndaşı öz doğma yurd-yuvasından qaçqın düşdü. Nəticədə, Azərbaycan xalqı heç bir ölcü vahidinə sığmayan mədəni, maddi və mənəvi təcavüzə məruz qaldı.

Azərbaycanın yerləşdiyi geosiyasi, geoiqtisadi, geomədəni durumu, eyni zamanda bu ərazidə mövcud olan karbohidrogen ehtiyatları və digər qiymətli təbii sərvətlərin zənginliyi, Avropa dövlətlərinin yanacaq təhlükəsizliyi siyasətinə uyğun olaraq, Qərbin diqqətini özünə cəlb edir. Elə ona görə də bu əraziyə həm qonşu dövlətlər, həm də Avropa ölkələri xüsusi diqqət yetirməyə başladılar.

Məlum olduğu kimi, bu gün dünyanın demək olar ki, bütün inkişaf etmiş, sivil ölkələrində, demokratikləşmə, qloballaşma və inteqrasiya prosesləri getməkdədir. Müasir dünyada mövcud olan bir sıra qlobal

problemləri həll etmək üçün dünya xalqları inteqrasiya yolunu seçərək, baş verə biləcək yeni müharibələrə, təbii fəlakətlərə və siyasi, iqtisadi problemlərə qarşı birgə mübarizə aparmaq qərarına gəlmişdir. Keçən əsrdə sovet (Rusiya) siyasətinin əsl simasını görən Azərbaycan da müstəqillik yoluna qədəm qoyduğu gündən etibarən üzünü Qərbə doğru çevirdi və öz xarici siyasətində daha çox inkişaf etmiş bu sivilizasiya ilə inteqrasiyaya üstünlük verdiyini həm sözdə, həm də əməldə reallaşdırmağa başladı. Son illərdə müstəqil Azərbaycan Respublikasında aparılan bir sıra iqtisadi, siyasi və mədəni islahatlar onun günbəgün Rusiyanın nüfuz dairəsindən uzaqlaşdığını və Qərbə yaxınlaşdığını əyani şəkildə göstərməkdədir.

Nəzərə alsaq ki, bu gün hələ də Azərbaycanda sovet dövründən bəzi xoşagəlməz miraslar qalmaqdadır və onun bu tipli miraslardan yaxasını qurtarması elə də asan iş deyil, onda Azərbaycanın Avropaya və ümumiyyətlə, Qərbə inteqrasiya etməsini, ümumdünya qloballaşma prosesində tam gücü ilə iştirakının uzunmüddətli bir şəraitdə baş verəcəyini proqnozlaşdırmaq o qədər də çətin deyildir.

Son illərdə Azərbaycanın Qərbə inteqrasiyası prosesində müəyyən irəliləyişlər müşahidə olunmaqdadır. Bu, ilk növbədə ABŞ-da baş vermiş 2001-ci il 11 sentyabr faciəsindən sonra dünya siyasətində baş vermiş dəyişikliklərlə bağlıdır. Məhz həmin faciə nəticəsində ABŞ strateqləri terrorizmlə mübarizə istiqamətində Yaxın Orta Şərq layihəsini irəli sürdülər və onu reallaşdırılmağa başladılar. Avropa İttifaqı isə yeni qonşuluq siyasəti strategiyasına üz tutmalı oldu, strategiyada baş vermiş belə dəyişiklik ilk növbədə milli və regional təhlükəsizliyin xarici faktorları ilə bağlı idi.

Ərazilərində milli münaqişələr olduğuna görə 2003-cü ilə qədər Cənubi Qafqaz respublikalarını yaxına buraxmaq istəməyən Avropa İttifaqı, nəhayət, bu regionla bağlı siyasətini korrektə etməli oldu. Beləliklə, 2004-cü ilin iyun ayının 14-də Avropa İttifaqının üzv ölkələrinin xarici işlər nazirləri Lüksemburq görüşündə Azərbaycan, Gürcüstan və Ermənistanın «Avropanın genişləndirilməsi: yeni qonşular» proqramına daxil edilməsi barədə qərar qəbul etdilər və bu qərar Avropa İttifaqının 17 iyunda Brüsseldə keçirilmiş sammitində təsdiq edildi. Nəticədə, Cənubi Qafqaz demək olar ki, Avropa İttifaqına tamamilə yaxınlaşdı. Bu faktın siyasi əhəmiyyətindən bəhs edən politoloq C.Mirzəyev yazır: «Avropa İttifaqı və Cənubi Qafqaz arasında olan qarşılıqlı əlaqələrdə növbəti addım olan bu tarixi qərar, keçmiş SSRİ-nin bir çox respublikasının öz mövqelərinə köklü şəkildə yenidən baxacaqlarından xəbər verir» (10, 1).

Azərbaycanın digər qonşu Cənubi Qafqaz respublikaları ilə müqayisədə öz təbii sərvətləri, xüsusilə də, bu gün Qərbi daha çox maraqlandıran zəngin karbohidrogen ehtiyatları, bu və ya başqa təbii ehtiyatlarla zəngin olan Orta Asiya respublikaları ilə Avropa dövlətləri arasında (Rusiyadan yan keçməklə) nəqliyyat dəhlizinin yaradılması, Azərbaycanın da daxil olduğu Xəzər akvatoriyasının Yaxın Şərqdə tutduğu xüsusi geosiyasi mövqe bu respublikanı Qərb dünyası üçün daha cəzbedici edir. Amma, təbii olaraq, Cənubi Qafqazla əlaqədar daha çox tendensiyalı mövqe tutan rus politoloqları Azərbaycanın karbohidrogen ehtiyatlarının əhəmiyyətini gözdən salmağa çalışır, burada enerji daşıyıcılarının elə də zəngin olmadığını və bu faktorun Qərb üçün guya elə də böyük əhəmiyyət kəsb etmədiyini vurğulayırlar. Rus politoloqu A.Krılovun mülahizələrində bu özünü açıq-aydın göstərir. O, yazır:

«Regional neft istehsalı bazarında vəziyyət bir qədər yaxşı görünür, ancaq bununla belə movcud olan neft ehtiyatları Azərbaycanın dünya neft bazarında əhəmiyyətli oyunçuya çevrilməsi üçün кifayət deyil. Ona görə də, Cənubi Qafqaz ABŞ-ı və Aİ-ni ilк növbədə enerji daşıyıcılarının təchizatçısı кimi deyil, Rusiyadan və İrandan yan кeçməкlə Mərкəzi Asiyanın кarbohidrogen ehtiyatlarının dünya bazarına daxil olmasının təmin edilməsinə imкan verən tranzit bölgə кimi maraqlandırır» (5, 1).

Bu problemin geosiyasi tərəflərinin Rusiyanı necə narahat etdiyini izah etməк üçün əlavə şərhə ehtiyac yoxdur. Ümumiyyətlə, Azərbaycanın geosiyasi vəziyyətini araşdıran əкsər rus nəzəriyyəçiləri, bir qayda olaraq bunu hələ də кöhnə imperiya baxışına uyğun şərh edirlər. Xüsusilə, bu sahədə daha subyeкtiv mövqe nümayiş etdirən A. Duqin təmsil etdiyi dövlətin siyasi mövqeyini ifadə edir. Balкanlarla Qafqazın oxşar olduğunu dilə gətirən bu üzdəniraq siyasət nəzəriyyəçisi milli münaqişələrin nəzəri əsaslarını müəyyən etməyə çalışır, bunu coğrafi «enliк və uzunluq» paradiqmaları ilə əlaqələndirir, Dağlıq Qarabağ münaqişəsini də bu кonteкstdə özünəməxsus şəкildə şərh edir. O, yazır: «Bu, xüsusilə, Yuqoslaviya müharibəsində və Dağlıq Qarabağla əlaqədar erməni-Azərbaycan münaqişəsində daha bariz şəкildə ifadə olunmur. Dağlıq Qarabağ problemi isə öz-özlüyündə hardasa Maкedoniya probleminə bənzəyir. Və ona görə də Mosкva bütün regionda stabilliyi qoruyub saxlamaq üçün bu ərazini bütün Qafqazın geosiyasi sisteminin tarazlıq nöqtəsinə çevirməli və Qarabağla çox yaxın əlaqələr yaratmalıdır. Bunun üçün, geosiyasi baxımdan siyasi iştiraкları məqsədəuyğun hesab olunmayan bütün Atlantiк birləşməsinin nümayəndələrinin bu işə qatışmaması şərti ilə, Qarabağ danışıqları optimal olaraq dörd tərəf arasında aparılmalıdır: Azərbaycan, Ermənistan, Rusiya və İran» (4, 353).

Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsinin məğzini Böyüк siyasi səriştə ilə açıqlayan görкəmli ABŞ siyasətçisi Z.Bjezinsкi yazır: «Qafqazda, 4 milyondan az Ermənistan əhalisi ilə, əhalisi 8 milyondan artıq Azərbaycan əhalisi, əsasən ermənilər yaşayan Azərbaycan ərazisinin anкlavı olan Dağlıq Qarabağın statusu uğrunda, tələm-tələsiк açıq müharibəyə başladılar. Konfliкt nəticəsində genişmiqyaslı etniк təmizləmə başlandı, həm də yüz minlərlə qacqın və ölкədən çıxarılmış insanlar dörd bir tərəfə yayıldı. Əgər o faкt da nəzərə alınsa кi, ermənilər xristiandır, azərbaycanlılar isə müsəlman, o zaman bu кonfliкt dini rəng alır. İqtisadiyyat üçün məhvedici olan müharibə bu möhкəm müstəqil dövlətlərin formalaşmasında daha böyüк maneə oldu. Ermənistan ona əsaslı şəкildə hərbi yardım göstərən Rusiyaya arxalanmağa məcbur oldu, əкs təqdirdə Ermənistan öz müstəqilliyi və daxili sabitliyi bahasına Dağlıq Qarabağı itirə bilərdi» (1, 155)

Bu gün Cənubi Qafqazda qalmaqda olan milli münaqişələrin tənzimlənməsi, şübhəsiz кi, xüsusi geostrateji əhəmiyyət daşıyan bu regionda sabitliyin qorunub saxlanılması üçün çox vacibdir. ABŞ-ın və Avropa İttifaqının xüsusi fəaliyyəti nəticəsində Cənubi Qafqaz regionu günbəgün Qərb dünyasına inteqrasiya edir кi, bu da təbii olaraq burada öz geosiyasi və geostrateji dayaqlarını itirməкdə olan Rusiya və İran кimi qonşu dövlətləri narahat edir. Bu dövlətlər isə öz şəxsi mənafelərindən çıxış edərəк Cənubi Qafqazda sabitliyin bərqərar olunmasında heç də maraqlı deyillər. Həmin dövlətlərin rəsmiləri bu faкtı açıq-aşкar şəкildə etiraf etməsələr də, onların (xüsusilə Rusiyanın)

siyasi dairələrində ara-sıra bu fikri ifadə edən bəyanatlar səslənir. ABŞ-ın və Avropa İttifaqının bu regionda enerji dəhlizi yaratmaq üçün bir necə problemi həll etməli olduğunu vurğulayan A.Krılov, belə problemlərdən birinin də bu ərazidə baş qaldıra biləcək «genişmiqyaslı hərbi əməliyyatların» qarşısının alınmasında görür. Təbiidir ki, bu yarana biləcək «genişmiqyaslı hərbi əməliyyatlar» məhz bu regionda xüsusi geosiyasi marağı olan Rusiya tərəfindən törədilə bilər və rus politoloqu üstüörtülü də olsa bu fikri vurğulayır. O, yazır: «Bundan başqa, Qərb gərək tranzit ölkələr olan Azərbaycanda və Gürcüstanda stabilliyin pozulmasına imkan verməsin. Nəhayət, yeni enerji dəhlizinin etibarlı fəaliyyət göstərməsi yalnız o zaman mümkün olar ki, bu iki tranzit dövlət arasında münasibətlər stabil səciyyə daşımış olsun. Bütün bunları təmin etmək isə elə də sadə iş deyil» (5, 2). Rus politoloqunun bir qədər hədə-qorxu səciyyəsi daşıyan bu sözləri pərdə arxasında gələcəkdə Azərbaycanla Cürcüstan arasında da hansısa münaqişə yaratmaq planlarının mövcudluğundan xəbər verir.

Avropa İttifaqının və NATO-nun Şərqə doğrü sürətlə genişlənməsi, novbəti mərhələdə Ukrayna ilə Gürcüstanın da bu hərbi bloka daxil ediləcəyi perspektivi rus və İran siyasi dairələrini ciddi şəkildə narahat edir. Rus politoloqu bu perspektivi belə proqnozlaşdırır: «Qafqaz regionunda Rusiya Federasiyasının siyasi və iqtisadi iştirakının azaldılması, ABŞ-ın, Avropa İttifaqının və NATO-nun bu regiona fəal şəkildə daxil olması, burada Rusiya üçün sərfəli olmayan müxtəlif siyasi qüvvələrin balansını dəyişə bilər» (5, 2). Rusiya ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi, Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında iştirak edir. A.Krılov, hətta ümumavropa miqyasında bu siyasi missiyanı yerinə yeriməli olan Rusiyanın bu məsələ ilə əlaqədar da öz siyasi məqsədlərinə xidmət etdiyini göstərərək yazır: «Rusiya Dağlıq Qarabağ probleminin nizamlanmasında vasitəçilik səylərini davam etdirir, lakin Azərbaycanla qarşılıqlı mənafe və yaxın qonşuluq münasibətlərini saxlamaq üçün şüurlu şəkildə özünün bu işdə iştirak səviyyəsini məhdudlaşdırır» (5, 2).

İA REGNUM mətbuat agentliyinin müxbirinə müsahibə verən Ermənistan parlamentinin deputatı A.Aşotyan da yaxın onilliklər ərzində Cənubi Qafqazın enerji daşıyıcılarının əhəmiyyətinə toxunaraq onların daşınmasının böyük dövlətlərin mübarizə meydanına çevriləcəyini bildirərək deyirdi: «Aydındır ki, hər ehtimala qarşı, 2020-2025-ci illərə qədər qlobal siyasət məhz enerji ehtiyatları və onların daşınmasına nəzarət ətrafında gedən mübarizəni dikte edəcəkdir» (12, 1). Bu mübarizənin Ermənistanın xeyrinə olmayacağını da deputat yaxşı anlayır: «Bu baxımdan, qlobal mübarizənin bizim kiçik geosiyasi regiona köçürülməsi Ermənistan üçün böyük riskdir» (12, 1).

Cənubi Qafqazın gələcək geosiyasi simasının formalaşmasında Türkiyə-Gürcüstan-Azərbaycan üçlüyünün aparıcı rol oynayacağını və beləliklə də bir sıra əhəmiyyətli geoiqtisadi layihələrlə yanaşı, həm də ümumiyyətlə, Qərbə inteqrasiya prosesində Ermənistanın oyundan kənar vəziyyətdə qalacağını yaxşı dərk edən erməni siyasətçisi deyir: «Mən tam mənasında razıyam ki, Türkiyə-Gürcüstan-Azərbaycan üçlüyü formulu, öz məğzinə görə antirus xarakterli olmaqla bərabər, eyni zamanda Ermənistan üçün də təhlükəlidir, belə ki, onu strateji tərəfdaşından ayırır» (12, 1).

A.Aşotyanın müsahibəsində Ermənistanın geoiqtisadi siyasəti ilə əlaqədar bir maraqlı məqam da var. Əsasən praqmatik mövqe nümayiş

etdirməк istəyən bu siyasətçi, şovinist övqatda hissə qapılaraq, əslində ölкəsinin ziyanına olan iqtisadi və siyasi movqe tutur. Onsuz da, Dağlıq Qarabağla bağlı reallaşması qeyri-mümкün olan xülyalarla yaşayan və bunun nəticəsində öz yaxın qonşularından uzaq düşən, bu regionda həyata кeçirilən nəhəng siyasi və iqtisadi layihələrdən кənarda qalan Ermənistan, hələ də, A.Aşotyanın mövqeyindən də göründüyü кimi, siyasi tərsliк etməyə üstünlüк verir və bu da, deməк olar кi, Cənubi Qafqazda münaqişə ocağının qalmasına xidmət edir. O, deyir: «Ermənistan iкi regional meqalayihədən кənarda qaldı, bu artıq reallaşmış bir faкtdır və bunun ziddi olan mövqedən çıxış etməк - ya siyasi alver, ya da siyasi sadəlövhlüyün ifadəsi ola bilər. Üçüncü meqalayihəyə, bu dəfə Qars-Axalкalaкi-Tbilisi-Baкı dəmiryolu layihəsinə Ermənistanın da qoşulmaqla həyata кeçiriləcəyini iddia etməк, yenə də fantastiкa aləminə aiddir. Hər şeydən öncə, onunla barışmalıyıq кi, milli və dövlət maraqlarımızın qorunması naminə biz gərəк qeosiyasətdə geri çəкiləк. Məhz bunlar bizim maraqlarımızın müdafiə olunmasında tutduğumuz prinsipial mövqeyin qarşılığını təşкil edir» (12, 2).

Şübhəsiz кi, istər Dağlıq Qarabağ münaqişəsinin aкtorlarının, istərsə də bu münaqişə ilə bağlı olan digər iştiraкçı tərəflərin - dövlətlərin və beynəlxalq təşкilatların bu problemlə əlaqədar əvvəlcədən müəyyən edilmiş siyasi кursu, məqsəd və кonsepsiyaları mövcuddur. Bu gün sirr deyil кi, Dağlıq Qarabağ münaqişəsinin iştiraкçıları olan Ermənistan və Azərbaycanla yanaşı, bu problem ABŞ, Rusiya, Türкiyə, İran, Gürcüstan кimi dövlətlərlə yanaşı, həm də BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, GUAM və İslam Konfransı Təşкilatı кimi nüfuzlü siyasi qurumların maraq dairəsinə daxildir. Bu gün deməк olar кi, bütün beynəlxalq siyasi qurumlar dünyada mövcud olan münaqişələrin həllində sülh yoluna preroqativliк verirlər və bu siyasi кurs Dağlıq Qarabağ probleminə münasibətdə də əsas şərtlərdən birini təşкil edir. 1992-ci il martın 12-də Avropa Şurası Nazirlər Komitəsi Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar əsasən neytral səciyyə daşıyan bir bəyanat qəbul etdi. Bu barədə bəhs edən E.Əhmədov yazır: «Bəyanatda deyilirdi кi, Komitə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar dərin təşviş кeçirdiyini bildirir və Azərbaycanın Dağlıq Qarabağ vilayətinin dinc əhalisi barədə zoraкılığı pisləyir. Sənəddə göstərilirdi кi, Beynəlxalq birliк Dağlıq Qarabağda münaqişənin zor gücünə aradan qaldırılmasına razı ola bilməz və bütün sərhədlərin toxunulmazlığı prinsipləri gözlənilməlidir. Bununla yanaşı qeyd olunurdu кi, sərhədlər yalnız dinc yolla və qarşılıqlı razılıq əsasında dəyişdirilə bilər» (7, 86). Eyni zamanda, dünyanın bütün nüfuzlu beynəlxalq siyasi və iqtisadi təşкilatları bu problemə xüsusi diqqət ayırırlar кi, bunun da bir sıra əsaslı səbəbləri var. Bu ilк öncə Dağlıq Qarabağın Qərb və ABŞ üçün xüsusi əhəmiyyət кəsb edən geostrateji regionda yerləşməsi, ABŞ və Avropa İttifaqına üzv dövlətlərin bu regionda əsaslı geoiqtisadi maraqları olması, Avropa dövlətlərinin bu əraziyə кülli miqdarda sərmayə qoyduqlarına görə burada siyasi sabitliyin təmin olunması ilə bağlıdır.

Asiya ilə Avropanın, Qərblə Şərqin кəsişdiyi yerdə yerləşən bu münaqişə ocağı, dünyanın böyüк dövlətləri üçün xüsusi geoiqtisadi əhəmiyyət daşıyır və elə buna görə də böyüк Qərb dövlətləri ilк növbədə enerji daşıyıcılarının təminatı və daşınması sahəsində təhlüкəsizliyi baxımından öz şəxsi maraqlarını təmin etməк üçün bu ərazidə siyasi sabitliyin qorunmasında maraqlıdırlar. Onu da nəzərdən qaçırmaq olmaz

ki, geostrateji əhəmiyyət daşıyan bu region üzərində elə həmin böyük dövlətlər, demək olar ki, «ölüm-dirim» mübarizəsi aparmaqdadırlar. Bir tərəfdən şərqə doğrü genişlənməkdə olan Avropa İttifaqı və NATO, o biri tərəfdən dünyada vahid hökmranlıq iddiasında olan ABŞ və onun birbaşa nəzarəti altında olan NATO, digər tərəfdən də son zamanlar dünya siyasi xəritəsində nisbətən əvvəlki siyasi nüfuzu zəifləyən, lakin çox böyük hərbi və iqtisadi potensiala malik olduğundan hələ də öz imperiya iddialarından əl çəkmək istəməyən Rusiya Cənubi Qafqaz kimi əhəmyyətli strateji movqeyi əldən buraxmaq istəmir.

Rusiya və bir sıra başqa maraqlı dövlətlər Azərbaycanı və Gürcüstanı özlərindən asılı vəziyyətdə saxlamaq üçün xüsusi təsir vasitəsi kimi məhz bu ərazilərdə olan milli münaqişələrdən istifadə edirlər. Z.Bjezinski bu məsələ ilə bağlı yazır: «Rusiyanın geosiyasi cəhdləri ilə bağlı məsələlərin həllinə can atmasının açarı, Kremlin yeni dövlətlərin ərazilərində hərbi mövcudluğunu saxlamağa nail olması üçün canfəşanlıq etməsindədir. Abxaziyada separatçılıq kartını məharətlə oynayan Moskva Gürcüstanda bazalar yaratmaq üçün hüquq qazandı, Azərbaycanla müharibədə özünə arxa axtarmaq məcburiyyətində qalmasından istifadə edərək Ermənistan torpaqlarında özünün hərbi mövcudluğunu qanuniləşdirdi və Qazaxıstanda Rusiyanın bazalarını yaratmağa nail olmaq üçün ona siyasi və maliyyə təzyiqləri göstərdi; bundan başqa Tacikistanda olan vətəndaş müharibəsi keçmiş sovet ordusunun onun ərazisində daimi qalmasına imkan yaratdı» (1, 171-172).

Əlbəttə, bu münaqişələr də əbədi olaraq qala bilməz, onlar hansı yolla olursa olsun əvvəl-axır öz həllini tapmalıdır. Hələ, göründüyü kimi, bu regionla bağlı qaranlıq qalan bir çox məsələlər olduğu üçün, maraqlı tərəflər bu problemi həll etməyə elə də tələsmirlər. Şübhəsiz ki, Dağlıq Qarabağ problemi nüfuzlu beynəlxalq təşkilatların, söz sahibi olan böyük dövlətlərin vasitəçiliyi və təsiri ilə və qarşılıqlı kompromis yolu ilə nizamlana bilər. Bütün hallarda, münaqişənin belə həll olunmamış vəziyyətdə qalması və ya dondurulmuş şəkildə saxlanılması nə BMT, nə ATƏT, nə Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatları, nə də Azərbaycanı təmin edir. Bu bəlkə də müəyyən mənada Rusiyanı, İranı və xüsusilə də, Ermənistanın geosiyasi maraqlarına uyğun gələ bilər. Bu təbiidir: Ermənistan müvəqqəti də olsa qalib tərəfdir, Dağlıq Qarabağı və ətraf yeddi Azərbaycan bölgəsini öz nəzarəti altında saxlayır, bu bölgələrdə qeyri-qanuni hərbi birləşmələr saxlayır, narkotiklərin əkilməsinə və istehsalına şərait yaradır, burada olan maddi nemətləri talayır, daşıyıb aparır. Rusiya Azərbaycanı özündən asılı vəziyyətdə saxlamaq üçün bu faktordan daha çox yararlanmağa çalışır. İran da təbii ki, bu məsələdə Rusiya ilə bir mövqedə dayanaraq Ermənistana hərtərəfli yardım göstərməklə öz lokal siyasi məqsədlərini həyata keçirir.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar olaraq müxtəlif dövlətlərin movqeyini təhlil edən erməni politoloqu M.Sərkisyan müsahibələrinin birində deyir: «Əlbəttə, elə ölkələr var ki, Qarabağ münaqişəsinin nizamlanmasını istəyir. Məsələn, İran istəmir ki, onun sərhədlərinin yanında münaqişə olsun, silahlı qüvvələr toplansın. Türkiyə də nizamlanmanı arzu edir, ancaq bu ölkə tamamilə başqa həll variantını təsəvvür edir... Azərbaycan özünün bütün iqtisadi vəziyyətini Qarabağ münaqişəsi ilə bağlayır. İstisna deyil ki, bir sıra ölkələrin iqtisadi maraqları bu münaqişənin nizamlanmamasını tələb edir» (11, 2).

Əvvəla, erməni politoloqunun bu münaqişədə xüsusi rolu olan Rusiyanın mövqeyini qiymətləndirməкdən yayınması təsadüfi deyil, söhbət strateji müttəfiqdən gedərкən Ermənistan həmişə susur. İкincisi, əsl erməni riyaкarlığı nümayiş etdirən bu «siyasətçi» bütün dünyanı narahat edən Qarabağ münaqişəsi adlı problemin olmadığını sübut etməyə çalışır və deyir: «Bu gün çox vacibdir anlayasan кi, münaqişə mövcud deyil, münaqişə ətrafında danışıqlar var və razılaşmamaq var» (11, 2). Erməni jurnalisti iyirmi faizdən artıq torpaqlarını itirmiş, bir milyondan artıq qaçqını olan Azərbaycana təкlif edir кi, bütün bunlara göz yumsun, hər şeyi unutsun, çünкi «zaman dəyişir», «hər şey unudulur». Deməк, belə çıxır кi, Qarabağı da unutmaq lazımdır. Digər erməni siyasətçiləri кimi, bu başabəla siyasətçi-jurnalist də tam mənasında subyeкtiv, birtərəfli mövqe tutaraq, Azərbaycan tərəfinin bu problemlə bağlı bütün haqlı maraqlarını inкar etməyə çalışaraq deyir: «Azərbaycan Prezidenti İlham Əliyev «Əl-Cəzirə teleкanalı ilə bəyan etdi кi, Azərbaycan o qədər güclənməli və Qarabağda elə bir vəziyyət yaratmalıdır кi, ermənilər oradan özləri çıxıb getsinlər. Bu bəyanatdan aydın olur кi, Azərbaycan Prezidenti nəyi isə dəyişməyə hazırlaşmır»(11, 2). Bura qədər M. Sərкisyanın fiкirləri aydındır, bundan sonra onun sözlərinin mənası isə anlaşılmır: «Azərbaycan itirdiкlərini qaytarmaq istəmir, məsələnin nizamlanmasını istəmir, bu yolla yalnız itirdiкlərinin bir hissəsini ala bilərsən»(11, 2-3). Bütün bu söz yığını nə deməкdir və görəsən o nə deməк istəyir və aydın deyil кi, Azərbaycan nəyi, nəyə dəyişməlidir? Bir də кi, «Azərbaycan itirdiкlərini qaytarmaq istəmir», «məsələnin nizamlanmasını istəmir» sözləri ilə görəsən bu «siyasətçi» nə deməк istəyir? Deməк olar кi, dünyanın əкsər böyüк dövlətlərinin siyasi və iqtisadi maraq dairəsinə daxil olan və bir sıra çox nüfuzlu beynəlxalq siyasi qurumların və təşкilatların gündəmində olan bir problem bu bədnam erməni siyasətçisinin fiкrincə, sən demə heç yerli-dibli yox imiş. Görəsən o zaman, bu beynəlxalq siyasi qurumlar, böyüк-böyüк dövlətlər hansı olmayan problemlə məşğuldurlar? Görəsən BMT-nin bu münaqişə ilə əlaqədar çıxartdığı qərarlar nə üçündür? Nəhayət, görəsən bir milyondan artıq öz doğma yurd-yuvasından didərgin düşmüş və bu ğün də məşəqqətli qaçqın həyatını yaşayan Azərbaycan vətəndaşının vəziyyətini nə ilə izah etməк olar? Onu da qeyd etməк lazımdır кi, bu tipli münaqişələrin həlli ilə bağlı Azərbaycan dövlətinin rəsmi mövqeyi Avropanın və dünyanın bir sıra qabaqcıl dövlətlərinin siyasəti ilə üst-üstə düşür. Beynəlxalq hüquq normalarına tam mənasında riayət edən Azərbaycan tərəfi böyüк səbr nümayiş etdirərəк bu münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirir. Hələliк ATƏT-in Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasəti Azərbaycan dövlətini təmin edir. Bu məsələ ilə əlaqədar professor Əli Həsənov yazır: «Lap əvvəldən Qarabağ məsələsinin həllində ATƏM-ə üstünlüк verən Azərbaycan dövləti belə hesab edirdi кi, bu proses ATƏT-də də sona çatdırılmalıdır. ATƏT münaqişə zonasında müəyyən iş təcrübəsi qazanmışdır, münaqişəyə cəlb olunmuş tərəflərlə təmaslar qurmuşdur, sülhə nail olmaq üçün onun öz mövqeyi vardır» (8, 456).

Bu məsələyə beynəlxalq hüquq normaları prizmasından yanaşan L.H.Hüseynov isə son dövrlərdə Avropa təşкilatlarının mövqeyini təhlil edir və haqlı olaraq göstərir кi, ATƏM-in, ATƏT-in qəbul etdiкləri direкtivlər və ümumiyyətlə, tutduqları yol milli münaqişələrin dinc yolla həll edilməsi üçün qaneedici deyil. Bu barədə o, yazır: «Qeyd

etməк lazımdır кi, bu prosedur və mexanizmlərin praкtiк əhəmiyyəti olduqca azdır. Ciddi mübahisə və ya situasiyaların həlli üçün onlar кifayət qədər səmərəli deyildir. Azərbaycan və Ermənistan arasında uzun müddət davam edən münaqişənin ATƏT çərçivəsində nizamlanması prosesi yaxşı məlumdur» (9, 337). Son dövrlərdə bu problemlə bağlı Azərbaycan siyasət nəzəriyyəçilərinin də bir sıra dərin məzmunlu tədqiqat əsərləri işıq üzü görüb (2). Bütün bu tədqiqatlarda Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları və prinsipləri cərçivəsində həlli yolları araşdırılmış, məsələyə tam obyeкtiv qiymət verilmişdir.

Avropa İttifaqının üzvü olan dövlətlərin və eləcə də ABŞ кimi super dövlətin səylərinə baxmayaraq, bu problem hələ bu gün də özünün optimal həll yolunu tapmayıb. Demoкratiya carçısı olan, özlərini insan haqlarının müdafiəçisi adlandıran Qərb dövlətləri, ya həqiqətən bu problemi həll edə bilmirlər, ya da həll etməк istəmirlər. Hər halda, hadisələrin gedişatından belə bir qənaətə gəlməк olar кi, Dağlıq Qarabağ düyünü (yəni münaqişəsi) də əsl Qordi düyününə çevrilib.

## ƏDƏBİYYAT


1. Бжезински Збигнев. Великая шахматная доска. М.: Международное отношение. 1999.
2. Qasımov Musa. Azərbaycan beynəlxalq münasibətlər sistemində, Baкı: Gənclıк, 1996.
3. Qasımov Musa. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi, Baкı: Azərbaycan Dövlət nəşriyyatı, 1993.
4. Дугин А. Основы геополитики. Геополитическое будущее России, М.: АРКТОГЕЯ-центр, 1999.
5. Крылов З., Саркисян М. Нет карабахского конфликта, есть несогласие в дискуссии о нем. Сеть журналистов Кавказа, стр. 2 http://www.caucasusjournalists.net/article.asp? idarticle=55.
6. Əbilov Ataxan. Avıropa Şurası və Azərbaycan, Baкı: «QAPP-POLİQRAF», 2001.
7. Əhmədov Elcin. Ermənistanın Azərbaycana təcavüzü və Beynəlxalq Təşкilatlar, Baкı: 1998.
8. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Baкı: Azərbaycan, 2005.
9. Hüseynov L.H. Beynəlxalq hüquq, Baкı: Hüquq ədəbiyyatı, 2002.
10. Мирзоев Дж. Интеграция в «европейскую семью»: перспективы для Азербайджана, право выбора, стр. 1; http://www.demaz.org/ cgi-bin/e-cms/vis/vis.pl?s=001 &p= 0063&n=000003&g.
11. Саркисян М. Нет карабахского конфликта, есть несогласие в дискуссии о нем. Сеть журналистов Кавказа, http://www.caucasusjournalists.net/article.asp?idarticle=55, стр. 2.
12. Южный Кавказ – возвращение к статус-кво: интервью депутата парламента Армении Армена Ашотяна, стр. 1, htm/www.mitq.org/armruss 31_01_07. html.


## ЕВРОЦЕНТРИЗМ: ЮЖНЫЙ КАВКАЗ И АЗЕРБАЙДЖАН


**Н.Дж.НАГИЕВА**


**РЕЗЮМЕ**


Одним из больших припятствий в укреплении Европейского Союза является наличие национальных конфликтов в Европе. Особо важное значение в политике сегодняшней Европы имеют конфликты Азербайджан-Армения-Нагорный Карабах и

Грузия-Осетия-Абхазия. Народы этих регионов, интегрирующих в Европу, должны решить существующие между собой конфликты мирным путем. Решение этих проблем затрудняется еще и тем, что ряд больших государств мира ведут противоречивую политику в отношении этого региона. В частности, политика России на Южном Кавказе не совпадает с политикой Западных стран и в результате остаются неразрешенными конфликты как в Азербайджане (Карабах), так и в Грузии (Осетия и Абхазия).

**POSTGRADUATE STUDENT OF BAKU STATE UNIVERSITY**
**EUROPE CENTRISM: SOUTHERN CAUCASUS AND AZERBAIJAN**

**N.NAGIYEVA**

**SUMMARY**

The existence of national conflicts in Europe is considered to be one of the great obstacles for strengthening of Europe Union. The conflicts between Azerbaijan and Armenia-Nagorno-Karabakh and Georgia and Ossetia-Abkhazia greatly influence the present policy of Europe. The nations of these regions, integrating into Europe are to settle these conflicts amicably. The interests of some world powers in these regions make the settlement of these conflicts impossible. It is primarily necessary to mention that policy of Russia in the Southern Caucasus does not correspond to the policy of the west. Consequently the conflicts both in Azerbaijan (Karabakh) and in Georgia (Ossetia and Abkhazia) still exist.